Respublika 2019.- 21 may.- S.3

# GƏNCƏ DÖVLƏT UNİVERSİTETİ İLƏ RUMINIYA UNİVERSİTETLƏRİ ARASINDA ƏMƏKDAŞLIQ İMKANLARI

**Rumıniyanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Dan İanku Gəncə Dövlət Universitetinə (GDU) səfər edib.**

Gəncə Dövlət Universitetinin rektoru, professor Yusif Yusibov qonağı salamlayıb, universitetin zəngin tarixi və son illərdəki nailiyyətləri haqqında məlumat verib. Bildirilib ki, hazırda respublikamızın qərb bölgəsində ən böyük ali təhsil müəssisəsi olan Gəncə Dövlət Universiteti təhsilin bütün pillələrində yüksək ixtisaslı pedaqoji kadrlar hazırlayan ali təhsil müəssisəsidir. Bu sahədə böyük təcrübəyə malik universitetin 80 illik yubileyi ötən il böyük təntənə ilə qeyd edilib. Həmin gün universitetin 5-ci - ən böyük tədris binası əsaslı yenidənqurmadan sonra istifadəyə verilib. Tədris korpusunun



binası müasir elmin və təhsilin tələblərinə uyğun yenidən qurulmaqla yanaşı, burada Nuru Paşa adına Kitabxana, Aleksandr Düma adına Fransa-Azərbaycan Mədəniyyət Mərkəzi, Əlil Tələbələr üçün Mərkəz, Müasir Təlim Mərkəzi, E-Mərkəz, həmçinin universitetin tarixi keçmişini və bütün uğurlarını özündə əks etdirən Muzey fəaliyyətə başlayıb.

Rektor səfir Dan İankuya GDU-nun beynəlxalq əlaqələri haqqında da məlumat verib. Bildirilib ki, hazırda GDU dünyanın, xüsusən də Avropanın qabaqcıl elm mərkəzləri və universitetləri ilə ikitərəfli, faydalı əməkdaşlıq edir.

Qeyd edilib ki, məhz İnnovasiyalar departamentinin təşəbbüsü və səyi ilə Gəncə Dövlət Universiteti Avropanın bir çox universitetləri ilə beynəlxalq layihələrdə iştirakçı kimi fəal əməkdaşlıq edir.

GDU-nun əsasən Avropa Komissiyasının təklif etdiyi proqramlarda aktiv fəaliyyət göstərdiyini deyən rektor Yusif Yusibov Rumıniyanın universitetlərilə də əməkdaşlığın universitet üçün əhəmiyyətli olacağını vurğulayıb.

Səmimi qəbula görə təşəkkür edən Rumıniyanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Dan İanku universitetdə olmaqdan məmnunluğunu ifadə edib.

Görüşdə gələcək əməkdaşlıq perspektivləri, birgə layihələrin təşkil olunması, universitetlərarası əlaqələrin qurulması haqqında fikir mübadiləsi aparılıb.

**Zabit XƏLİLOV,**
**"Respublika".**